Bayramov, V. Müdrik siyasətin Zəfər təntənəsi / Vaqif Bayramov // Xalq qəzeti. - 2021. - 5 oktyabr. - № 213. - S. 7.

Birinci Qarabağ müharibəsindən ötən uzun illər ərzində Ermənistan işğalçı siyasətini davam etdirdi, ardıcıl təxribatlar törətdi. Hətta düşmən ölkənin baş naziri Nikol Paşinyan Azərbaycana qarşı 7 şərt irəli sürməkdən, təcavüz xarakterli şüarlar səsləndirməkdən, bütün bunlarla bərabər, Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşdırma siyasəti aparmaqdan, terrorçuları həmin bölgələrdə yerləşdirməkdən belə çəkinmədi. Beləliklə, qəsbkarın həyata keçirdiyi təxribatlar, hücumlar təcavüzkara əsl dərs verilməsinin zamanının gəldiyini aşkar şəkildə dünyaya göstərdi.
Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin Anadolu Agentliyinə verdiyi müsahibədə ötən il sentyabrın 27-də başlanan Vətən müharibəsini şərtləndirən amillərlə bağlı fikirlərində də bu məqama xüsusi toxunub. Dövlətimizin başçısı müxbirin həmin vaxt Azərbaycanın Ermənistanın hücumuna cavab olaraq əks-həmlə əməliyyatı keçirməsinin səbəbi barədə danışarkən, deyib: “Son müddət ərzində Ermənistanın bizə qarşı təxribatları müntəzəm xarakter almışdı. Həm bizə qarşı yönəlmiş açıqlamalar, eyni zamanda, addımlar onu göstərirdi ki, Ermənistan yeni müharibəyə hazırlaşır. Mən bunun səbəblərini bu günə qədər də anlaya bilmirəm. Çünki 30 il ərzində digər dövlətin torpaqlarını işğal altında saxlayan bir dövlət yeni savaşa çıxmaq fikrində olursa, bu, çox ciddi araşdırılmalıdır ki, bunun səbəbi nədir. Sözümün təsdiqi olan addımlar da göz qabağındadır…”.
Prezident İlham Əliyev müsahibədə daha sonra İkinci Qarabağ müharibəsinə gətirib çıxaran addımları diqqətə çatdıraraq, bildirdi ki, hələ ötən ilin iyul ayında işğalçı Azərbaycan–Ermənistan sərhədində hərbi təxribat törətdi və bunun nəticəsində 13 mülki şəxs və hərbçi həlak oldu. Silahlı Qüvvələrimiz isə dövlət sərhədini keçmədən tarixi torpaqlarımız daxilində düşmənə layiqli dərs verdi, qəsbkar hücum etdiyi ərazimizdən çıxarldı və bir neçə gün çəkən toqquşma sona çatdı.
Ermənistan yenə də dinc dayanmadı, faşist xislətindən irəli gələn siyasətini davam etdirərək, avqust ayında yenidən Azərbaycana qarşı təxribat törətdi, sərhədimizi keçən erməni diversant qrupu hərbçilərimiz tərəfindən tərk-silah olundu.
Bu ardıcıl təxribatlar, şübhəsiz ki, Ermənistanın məkrli planından xəbər verirdi. Düşmənin belə bir faşist niyyətindən təbii ki, Azərbaycanın xəbəri var idi. Çünki hələ bir il bundan əvvəl dövlətimizin başçısı Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının sessiyasında çıxış edərkən, Ermənistanın yeni savaşa hazırlaşması barədə məlumat vermişdi. Bundan üç gün sonra isə artıq yenidən mövqelərimiz və yaşayış məntəqələrimiz artilleriya atəşinə tutuldu, bir neçə hərbçimiz şəhid oldu. Belə halda Ali Baş Komandan İlham Əliyevin əmri ilə genişmiqyaslı əks-hücum əməliyyatının aparılması təsadüfi deyildi.
Ermənistanın İkinci Qarabağ müharibəsinə başlamasının əsas səbəblərindən biri də işğalçının 30 ilə yaxın bir dövr ərzində “məğlubedilməz orduya sahib olması” mifinin əsirinə çevrilməsi idi. Başqa sözlə, düşmən istənilən genişmiqyaslı hücumla yenə də Azərbaycan ərazilərini qəsb etmək, yeni əraziləri tapdaq altına salmaq düşüncəsi ilə yaşayırdı və revanşist belə bir məkrli planı reallaşdırmaqla “xalqın gözündə ucalmaq” məqsədi güdürdü. Prezident İlham Əliyevin müsahibədə vurğuladığı kimi, görünür, Ermənistanın hakimiyyətə yeni gələn

rəhbərliyi hansısa hərbi uğurla da öyünmək istəyirdi. Ancaq Ermənistan hesablamanı düzgün aparmadı, çox böyük xətaya yol verdi və acı məğlubiyyətlə üzləşdi.
Burada onu da xatırladaq ki, dövlətimizin başçısı prezidentlik fəaliyyətinin bütün mərhələlərində etdiyi ayrı-ayrı çıxışında Ermənistana dəfələrlə xəbərdarlıq edib, düşmənin əgər öz çirkin əməllərindən əl çəkməyəcəyi halda peşman olacağını diqqətə çatdırıb, eyni zamanda, bu mesajların onlar üçün dərs olmadığını da qeyd edib.
Təəssüf ki, Azərbaycanın sülh yolu ilə Ermənistanın işğalçılıq siyasətinə son qoymaq, dinc yolla ərazilərimizi tapdaq altından xilas etmək təşəbbüsləri, necə deyərlər, havadan asılı vəziyyətdə qalmışdı. İşğalçı dövlət ölkəmizin əmin-amanlıqla qonşuluq münasibətinin yaranmasını düzgün dəyərləndirmirdi, hər vəchlə danışıqlar prosesini pozurdu. Bu, hal Nikol Paşinyanın hakimiyyətə gəlməsi ilə daha qabarıq nəzərə çarpdı. Prezident İlham Əliyev sözügedən müsahibədə bununla bağlı deyib: “Təəssüf ki, İkinci Qarabağ müharibəsindən əvvəlki iki il ərzində Azərbaycan tərəfindən verilən müsbət siqnallar orada yanlış anlaşıldı – bir zəiflik kimi, bir gücsüzlük kimi. Biz, sadəcə olaraq, qan tökmək istəmirdik. Biz gücümüzü bilirdik və bilirdik ki, biz bu məsələni güc yolu ilə həll edə bilərik. Ermənistan isə buna inanmırdı. İndi də hələ gec deyil. Yeni yaranmış reallığı düzgün dərk etsin, bu reallığa görə addımlar atsın, xəritəyə baxıb öz yerini orada tapsın, əgər tapa bilərsə, bir nöqtədir xəritədə və buna uyğun addımlar atsın. Belə olan halda, əlbəttə ki, bölgədə genişmiqyaslı əməkdaşlıq mümkündür…”.
Yeri gəlmişkən, Nikol Paşinyan Ermənistanın baş naziri seçiləndən İkinci Qarabağ müharibəsi başlanan vaxtadək daim təxribatçı fəaliyyət göstərirdi. Belə ki, o, Ermənistan parlamentinə müraciətində Azərbaycanın işğal olunan ərazilərində qurulan qanunsuz rejimin danışıqlarda iştirak etməsi məsələsini qaldırır, “Dağlıq Qarabağda düşmənin qarşısının alınması” mexanizminin təkmilləşdirilməsi məsələsinin müzakirəsini aparır, müxtəlif vaxtlarda “Artsax Ermənistandır, nöqtə” kimi təcavüz xarakterli şüarlar səsləndirirdi. Eyni zamanda, Livandan olan erməni ailələrinin Şuşa şəhəri daxil olmaqla işğal olunan ərazilərdə məskunlaşmasına şərait yaratmaqla qanunsuz məskunlaşma siyasətini reallaşdırırdı.
Prezident İlham Əliyev müsahibədə bildirir ki, uzun müddət fəaliyyət göstərən Minsk qrupu bütün bu təxribatları susqunluqla qarşılamasaydı, Ermənistana vaxtında ciddi təzyiq göstərsəydi, təbii ki, işğalçı məcbur olub qəsb etdiyi torpaqlardan çıxacaqdı və belə olan halda müharibəyə ehtiyac qalmayacaqdı. Ancaq həmsədrlər tərəfindən bu, baş vermədi. Halbuki Minsk qrupuna həmsədrlik edən və dünya miqyasında ən güclü ölkələr sayılan hər üç dövlət Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvü idi. Onların siyasi çəkisi, siyasi imkanları Ermənistana ciddi mesajlar verməyə, onu işğalçılıq siyasətinə son qoymağa məcbur etməyə yetərdi. Sadəcə Minsk qrupu “nə hərb, nə sülh siyasəti”nə üstünlük verməklə kifayətləndi.
Dövlətimizin başçısı müsahibədə bu məqamla bağlı deyib: “Mən Minsk qrupunun həmsədrlərinə və digər böyük dövlətlərə dəfələrlə müraciət etdim ki, Ermənistana sanksiyalar tətbiq edilməlidir. Bu da savaşın qarşısını ala bilərdi. Çünki bu sanksiyalar Ermənistan üçün böyük çətinliklər yaşadacaqdı və onlar məcbur olub bizim torpağımızdan çıxacaqdılar. Yəni, biz bütün imkanlardan istifadə etdik ki, bunu sülh yolu ilə çözək, müharibə olmasın, qan

tökülməsin. Ancaq bununla bərabər, mən deyirdim ki, biz bu vəziyyətlə barışmayacağıq. Nəyin bahasına olursa-olsun öz torpağımızı azad edəcəyik və sadəcə olaraq, şans verirdik…”.
Bəli, Prezident İlham Əliyevin bildirdiyi kimi, Ermənistana torpaqlarımızdan sülh yolu ilə çıxmasına şans verilirdi, lakin işğalçı bu humanist addımı dəyərləndirmək gücündə deyildi. Şübhəsiz ki, Ermənistanın 2018-ci ildə hakimiyyətə gələn yeni rəhbərliyi də bu danışıqlar, yəni, müzakirə prosesinə çox böyük zərbə vurdu. Çünki onların yersiz və çox məsuliyyətsiz açıqlamaları faktiki olaraq müzakirə prosesini iflic etdi: “Belə olan halda, Minsk qrupu daha müsbət, daha da cəsarətli addımlar atmalı idi. Onlar isə sadəcə olaraq, müşahidə edirdilər, sadəcə olaraq, buna müşahidəçi kimi yanaşırdılar. Ona görə, İkinci Qarabağ müharibəsinin başlanmasında, əlbəttə ki, ən böyük məsuliyyət Ermənistanın üzərinə düşür, eyni zamanda, Ermənistanı vaxtında dayandırmayan böyük dövlətlərin üzərinə düşür”.
Beləliklə, Azərbaycanın bütün cəhdlərinə, sülh yolu ilə torpaqlarımızın azad edilməsi istəyinə Ermənistan biganə münasibət sərgilədi. Haqq yoluna qayıtmaqdan tamamilə uzaq olan işğalçı dövlətin ordusunun keçən il sentyabrın 27-də təxribat törədərək, ölkəmizə hücuma keçməsi, müxtəlif növ silahlardan, o cümlədən, ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi və hərbi mövqelərimizi bir neçə istiqamətdən atəşə tutması Azərbaycan Silahlı Qüvvələrini əks-hücum əməliyyatlarına başlamağa məcbur etdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz 44 gün davam edən müharibə gedişində möhtəşəm qələbələr qazanaraq, dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Silahlı Qüvvələrimiz döyüş meydanında Ermənistanın “güclü, məğlubedilməz” ordu mifini tamamilə darmadağın etdi, qəsbkarın 30 ilə yaxın bir dövrdə qoruyub saxladığı status-kvo və təmas xəttini tamamilə dağıtdı.
Bu gün işğaldan azad edilən ərazilərimizdə sürətli bərpa-quruculuq layihələri həyata keçirilir. Məsələn, Füzuli hava limanı az bir vaxt ərzində artıq tamamlama prosesindədir. Avtomobil yollarının salınması, elektrik təsərrüfatlarının yaradılması, kənd və şəhərlərin bərpa əməliyyatları da diqqət mərkəzində saxlanılır. Dövlətimizin başçısı müsahibəsində bununla bağlı deyib: “Biz müharibə bitər-bitməz vaxt itirmədən dərhal hərəkətə keçdik və bu, dövlətimizin gücünü göstərdi. Çünki bu işləri görmək üçün təkcə pul kifayət etməz. Çünki resurs olmalıdır, kadrlar olmalıdır, heyətlər olmalıdır, texniki imkanlar olmalıdır, səriştə olmalıdır. Biz bütün gücləri səfərbər etdik. Bu və digər məsələləri, məsələn, elektriklə bağlı olan məsələləri bu ilin sonuna qədər bitirəcəyik. Yəni, bütün bölgə elektriklə tam təmin ediləcək. Bildiyiniz kimi, yolların inşası da davam edir və sair”.
Prezident İlham Əliyev müsahibəsinin sonunda Türkiyə–Azərbaycan münasibətləri barədə də fikirlərini diqqətə çatdırıb. Dövlətimizin başçısı deyib: “Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan əvvəlki illərdə də yüksək platformalardan Azərbaycanın haqq işi haqqında çox geniş məlumatlar verirdi. Hər zaman bu məsələ onun xarici siyasət kursunda bir nömrəli məsələ olub. Bu dəfə artıq savaşdan, Zəfərdən sonra orada bu sözləri deməsi, əlbəttə, bizi çox sevindirir və bir daha onu göstərir ki, Rəcəb Tayyib Ərdoğan hər zaman Azərbaycanın yanındadır. Necə ki, savaşın ilk saatlarında o bildirmişdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bizə əlavə güc verdi və mənəvi güc verdi”.
Ümumiyyətlə, Prezident İlham Əliyev hər zaman qardaş Türkiyənin Azərbaycana dogma münasibəti barədə xüsusi danışıb, bu ölkənin müharibənin ilk günlərindən haqq işimizə

böyük dəstək verdiyini xatırladıb. Bütün bunlardan sonra təbii ki, qardaş ölkənin Qarabağın bərpasında da köməyini əsirgəməyəcəyini vurğulayıb. Məhz bunun nəticəsidir ki, ilk bərpa-quruculuq müqavilələri də Türkiyə şirkətləri ilə imzalanıb.

Hazırda türk şirkətləri Azərbaycan üçün strateji önəm daşıyan Füzuli-Şuşa avtomobil yolunun inşasında, eyni zamanda, Göygöl bölgəsindən Kəlbəcərə magistralın çəkilişində səmərəli fəaliyyət göstərirlər. Onların digər infrastruktur layihələrinin icrasında və tarixi abidələrimizin bərpasında da Azərbaycana qardaşlıq köməyi edəcəkləri nəzərdə tutulur.

Azərbaycan ilə Türkiyə arasındakı iqtisadi münasibətlər tarixi-mədəni yaxınlığa və qarşılıqlı strateji tərəfdaşlığa əsaslanır. İkitərəfli iqtisadi əlaqələrdə çoxşaxəlilik və intensivlik müşahidə edilir. Bu əlaqələr ticarət, investisiya qoyuluşları və çoxtərəfli münasibətləri əhatə edən regional layihələrdə özünü daha qabarıq göstərir. Hazırkı iqtisadi tərəfdaşlıq həm Türkiyə və Azərbaycanın ölkə miqyasında, həm də region miqyasında nüfuzunun və iqtisadi gücünün artımında əhəmiyyətli rol oynayır. Türkiyə ilə sıx iqtisadi münasibətimizin böyük inkişaf potensialı vardır. Hər iki ölkə lideri mövcud iqtisadi əlaqələrin inkişafı üçün böyük səy göstərir.